**AYGÜN İBRAHİMOVA**
**ADU Rəşid Behbudov134**
**aygunibrahimova@yahoo.com**

# PROBLEM ƏSASLI ÖYRƏNMƏ VƏ ONUN ƏSAS XÜSUSIYYƏTLƏRİ

Xülasə

Bu məqalə xarici dil öyrənmə prossesində problem əsaslı yanaşmalar mövzusundan bəhs edir. Problem əsaslı təlim 1970-ci ildən bəri bütün dünyada tətbiq edilməyə başlamışdır. Bu yanaşmanın təcrübəyə əsaslanan təlim prossesini dəstəkləyən uzun bir tarixi vardır. Problem əsaslı öyrənmə tələbələrə özləri üçün məqsədi müəyyənləşdirməkdə köməklik edir. Belə ki, bu yanaşma tələbələrə gələcəkdə onların özlərini necə gördüklərini və onların dili hansı yolla öyrəndiklərini anlamalarına köməklik edir. Bu elə bir təlim metodudur ki, burada tələbələrin diqqəti bir neçə cavabdan ibarət olan mürəkkəb bir məsələ üzərində cəmləşir. Öyrənənlər qrup çəklində əməkdaşlıq edərək problemli məsələni həll etməyə çalışırlar. Lakin onlar fərqli nəticələr əldə edə bilərlər. Effektiv şəkildə situasiyanı idarə etmək məqsədi ilə onlar həmin situasiyaya uyğunlaşmalı və öyrəniləcək məlumatı müəyyənləşdirməlidirlər. Bu yanaşma tələbəyönümlü yanaşma olub, tələbələrə təlim prossesini öz ehtiyacları ilə əlaqələndirməyə və onların tədqiqat zamanı sərbəst fəaliyyətlərini təmin etmək üçün geniş məlumat toplusunun kəşfinə şərait yaradır. Bu yanaşma öz əməkdaşlıq xüsusiyyətinin effektivliyi, daxili motivasiyanın inkşafı, sabitliyi və müxtəli məzmunlarda və fərqli mövzularda özünü göstərən müxtəlifliyi ilə xarakterizə olunur. Müəllim təlim prossesində fasilitator kimi çıxış edir. O tələbələri yeni biliklərlə təmin etməkdən çox onları istiqamətləndirir. Bu məqalədə biz problem əsaslı təlimdə öyrənmənin xarakterini və təcrübi cəhətdən ona dəstək olan sübutları araşdırmağa çalışmışıq.

**Açar sözlər**: problem əsaslı öyrənmə, öyrənmə prossesi, problemin həlli, müstəqil öyrənmə

Problem əsaslı öyrənmə tələbə yönümlü yanaşma olub dilöyrənənlərə istiqamətləndirilmiş tədris metodlarını özündə ehtiva edir. Eyni zamanda problem əsaslı öyrənmə tələbələrin məlumat xarakterli ehtiyaclarını müəyyənləşdirmək bacarığını nümayiş etdirməkdə onlara köməklik edir. Bu yanaşma elm və tibb sahəsində müvəffəqiyyətlə tətbiq edilmişdir. Həmçinin, problem əsaslı öyrənmə tələbələrin tənqidi təffəkkürünün inkşafında, onların dil öyrənmə prossesində qarşılaşdıqları problemləri həll edərkən yaradıcı düşünə bilmək, məntiq irəli sürmək, təhlil etmək kimi keyfiyyətlərin ön plana çəkilməsində çox böyük əhəmiyyətə malikdir. Psixoloji araşdırmalar göstərmişdir ki, problem əsaslı öyrənmə zamanı tələbələr həm problemin məzmunu ilə tanış olur, həm də düşünmə strategiyasını müəyyənləşdirirlər.

Problem əsaslı təlim elə bir təlim növüdür ki, burada tələbələr asan yollarla problemin həlli yollarını tapmağa çalışırlar. Problem əsaslı təlimdə tələbələrin fikri mürəkkəb bir problem ətrafında mərkəzləşir. Bu problemin isə bir neçə həlli yolları ola bilər. Tələbələr problemi həll etməkdən və ehtiyac duyduqlarının nə olduğunu müəyyənləşdirməkdən ötrü qrup şəklində fəaliyyət göstərirlər. Onlar əldə etdikləri bilikləri problemin həlli üçün istifadə edir və tətbiq edilən strategiyların uğurlu olub olmamağı üzərində düşünürlər. Tələbələr uyğun biliklərini müəyyənləşdirir, problemin mümkün həlli yollarını kiçik qruplarda toplaşaraq tapmağa

çalışırlar. P.Hager və J.Butlerə görə bacarıqlara əsaslanaraq öyrənmənin əsas hədəfi problem əsaslı təlimin təhsilverici model ilə bir sırada durmasıdır. ( 4, 35)

Problem əsaslı təlimin tətbiqində məqsəd yalnızca müəyyən bir problemin həlli deyil, o problem əsasında meydana çıxan yenı öyrənmə hədəflərinin üzə çıxarılması və problemi həll etməyə cəhd edərkən öyrənənin tədqiqata cəlb edilməsi, araşdırma aparması, müzakirə və soruşub cavablandıra bilmə kimi bacarıqlarının formalaşmasıdır.

Problem əsaslı təlimin tətbiqi zamanı yerinə yetirilən tapşırıqların dəqiqliyi və tamlığı əsas prinsiplərdən biri kimi qarşımızda durur. Bu zaman müəllimin əsas rolu tələbələrin biliyini artırmaqdan çox öyrənmə prossesini asanlaşdırmaqdır. Eyni zamanda müəllim dil öyrənənə öyrənmək işində rəhbərlik etməli və onlar üçün yararlı öyrənmə mənbələrini təqdim etməlidir. Başqa sözlə öyrənməyi öyrətməlidir.

E. Cindy Hmelo-Silver problem əsaslı təlimin məqsədlərini aşağıdakı kimi müəyyənləşdirmişlər:

- sərbəst biliklərə yiyələnmək;
- səmərəli problem həll etmə bacarığının inkşafı;
- avtonom bacarıqların inkşafı;
- səmərəli əməkdaşlıq bacarığının inkşafı;
- daxili motivasıyanın inkşaf etdirilməsinə koməklik;(2, 235)

Bir çox mənbələrdə problem əsaslı öyrənmənin əsasən 3 ilkin məqsədini əhatə edən araşdırmalar qeyd edilmişdir. Lakin son 2 məqsəd çox geniş şəkildə işlənməmişdir. Problem əsaslı öyrənmə tələbələrdə sərbəst öyrənməni və uzunmüdddətli öyrənmə bacarıqlarının inkşafına köməklik edəcək bir potensial irəli sürən bir yanaşmadır.

D.Boud və E. Grapame problem əsaslı təlimin aşağıdakı xüsusiyyətlərini qeyd etmişlər.

- vacib problem, sual və ya məsələni müzakirə etmək üçün stimulverici materiallardan istifadə edərək tələbələrə köməklik etmək;
- problemi real həyatla əlaqələndirərək tələbələrə təqdim etmək;
- tələbələrdə tənqidi düşünə bilmə bacarıqlarının inkşafına nəzarət etmək. Problemlərin həlli yollarını müəyyənləşdirərkən tələbələrə köməklik etmək məqsədi ilə onlara əlavə mənbələr təqdim etmək;
- tələbələrə öz ehtiyaclarını müəyyənləşdirməyə və onları lazımi mənbədən sərbəst şəkildə istifadə etməyə cəlb etmək;
- əldə edilən biliyi əsas problemin həllinə yönəltmək və öyrənmə prossesini qiymətləndirmək;
- tələbələrə qrup şəklində əməkdaşlıq etməyi, sinifdaxili və xarici kəşf ediləcək problemin səriştəli müəllim tərəfindən təqdim edilməsi və müəllimin öyrənmə prossesini fasilitasiya etməsi problem əsaslı təlinmin əsas xüsusiyyətləri kimi verilmişdir; (3, 3)

Problem əsaslı öyrənmədə şagirdlər problemi həll edərək və təcrübələrinə əsaslanaraq öyrənməyə çalışırlar. Problem əsaslı öyrənmə öyrənənlərə fəal öyrənən olmaqda köməklik edir. Ona görə də problem əsaslı öyrənməni bəzi metodistlər fəal tədris kimi də qeyd edirlər. Müasir dövrdə müəllimlər bu yanaşmaya daha çox maraq göstərirlər. Problem əsaslı təlim fəal, dəyişə bilən öyrənmə prossesinə daha çox əsaslanır və öyrənənləri həvəsləndirmək üçün çox böyük əhəmiyyətə malikdir.

Problem əsaslı təlimin birinci mərhələsi qrupları müəyyənləşdirməklə xarakterizə olunur. Bu qruplar bir qrup tələbələrdən, bələdçidən və məsləhətçidən ibarətdir. Onlar adətən müzakirə edəcəkləri mövzunu əvvəlcədən bilməlidir. Bu isə, onların öz özünə öyrənmə və hər bir ani krizis anına hazır olma bacarığını inkşaf etdirir.

Problem əsaslı təlim prossesi bir qrup tələbəyə mürəkkəb problem barədə minimal məlumat verməklə başlayır. Tələbələr isə öz növbəsində əlavə məlumat əldə etmək üçün suallar

verməyə çalışırlar. Onlar həmçinin məlumatı tədqiqat apararaq da əldə edə bilərlər. Problemi həll etməyə çalışarkən tələbələr ağıllarına gələn fikirləri yazmaq üçün lövhədən istifadə edirlər. Faktlar, fikirlər, məsələlər, fəaliyyət planı olmaqla lövhəni 4 sütuna bölürlər. Faktlar bölməsi problem nədir və harada yaranır kimi məlumatları əhatə edir. Fikirlər bölməsi problemin həlli yollarını, məsələlər bölməsi isə tələbələrin daha sonra nələri öyrənmək istədiklərini əhatə edir. Fəaliyyət planı bölməsində isə onlar problemi həll etmək və ya əlavə məlumat əldə etmək üçün planlar toplusunu qeyd edirlər. Lövhə problemə qarşı fikri cəmləşdirməyə və tələbələrin biliklərinin yenidən formalaşdırılması üçün bir forma kimi istifadə edilir. Bu problemin həlli prossesinə sistemli şəkildə yanaşmanın bir modelini təşkil edir. Yəni bu model sayəsində tələbələr nəyi lövhədə qeyd etmək lazım olduğunu aydın şəkildə təsəvvür edə bilirlər.

Problem əsaslı təlimdə qarşıya qoyulan problem çox böyük əhəmiyyətə malikdir. Bu halda problem mürəkkəb, açıq sonluqlu, daxili motivasiyanı təmin edən və real olmalıdır. Problem tələbələrə biliklərinin effektivliyini və öyrənmə strategiyalarını dəyərləndirməyə köməklik edir. Problem həmçinin təxmin edilə bilən və mübahisəni təmin edə bilən olmalıdır. Problemin həlli əlaqəli parçaları birləşdirə bilmək üçün kifayət qədər mürəkkəb olmalı, eyni zamanda tələbələri bilmək və öyrənməyə həvəsləndirməlidir.

Belə problemlər tələbələrin ilkin anlamaya əsaslanan öyrənmə prossesinə maraqlarının artmasında köməklik edir. Effektiv problem əsaslı öyrənmə zamanı problem vacib bir amildir, lakin yeganə faktor deyil. Problem əsaslı təlimin effektivliyində fasilitator olan müəllimin rolu əvəzedilməzdir. Problem əsaslı təlimdə müəllim öyrənmə və düşünmə üçün yaxşı startegiya modelləri verə bilən təcrübəli öyrənəndir. Bu zaman müəllim sual-cavab və müzakirə üsulundan istifadə edə bilər. Fasilitator tələbələri problem əsaslı təlimin müxtəlif mərhələlərinə yönəltmək və qrupa nəzarət etmək üçün məsuliyyət daşıyır. Bu nəzarət bizi əmin edir ki, bütün tələbələr prossesə cəlb edilsinlər.

Problem əsaslı təlimdə müəllim tələbələri öz düşüncələrini əsaslandırmaq üçün həvəsləndirir. Müəllim ilk növbədə problemin həlllinin modelini yaradır, daha sonra müəllim tələbələrə yaxşı əməkdaşlıq etməyi öyrədir. Bu zaman müəllimin əsas vəzifəsi dil öyrənən fərdə öyrənmə prossesində rəhbərlik etmək və onları onlar üçün yararlı olacaq mənbələrlə tanış etməkdir.

Müəllimin qarşısında bir çox məqsədlər durur. Birincisi o problemin həlli prossesinə nəzarət edir və tələbələrin öz səyi ilə bilik əldə etmələrinə köməklik edir. İkincisi müəllim tələbələrə daha yaxşı əməkdaşlığın əhəmiyyətini başa salır. Belə təxmin edə bilərik ki, müəllim öyrənmə və əməkdaşlıq prossesinə rəhbərlik etdikdə tələbələr sərbəst biliklərə daha yaxşı yiyələnə bilirlər. Fasilitasiya necə aparılmalıdır və nə üçün fasilitator üçün bir qrup və ya bir neçə sayda tələbələrlə işləmək, bir neçə qrup və daha çox tələbələri əhatə edən bir siniflə işləməkdən daha çətindir. Fasilitasiya incə bir işdir. Bu nə zaman hansı sualı tələbələrə ünvanlamaq lazım olduğunu, onlar geri qalanda onlara köməklik etməyi və problem əsaslı öyrənmə prossesini təmin etməyi özündə ehtiva edir.

Müəllim məqsədə çatmaq üçün ötrü problem əsaslı təlimin müxtəlif mərhələlərinə uyğunlaşan bir çox üsullardan istifadə edir. Tələbələr təlim materialının məzmununa və bacarıqların əsasən problemi həll etməyə çalışır və əldə etdikləri nəticələri gələcəkdə istifadə edəcəkləri barədə müzakirələr aparırlar

J.S.Atertona görə problem əsaslı təlimin bir çox formaları vardır. Yaxşı təşkil edilmiş problem əsaslı təlimdə aşağıdakı amillər diqqət mərkəzində olur:

- Öyrədilənlər real həyat problemləri ilə əlaqəli olmalı;

- Normal öyrənmə metodunda bildiyimiz kimi tələbələr özlərinin əvvəlcədən əldə etdikləri

biliklərə əsaslanaraq sualları cavablandırmağa çalışırlar. Ancaq bu metoddan fərqli olaraq problem əsaslı təlimdə tələbələr heç bir ilkin biliklərindən istifadə etməyərək sualları cavablandırmağa cəhd edirlər. Bu halda onlar sualllarla təchiz edilmiş bir çox bölmələri açmağa, bu suallara cavab tapmağa çalışırlar;

- Öyrənmə prossesinin başlanğıcında problemlər məqsədli olaraq tələbələrə verilir;
- Problem əsaslı öyrənmə təsirli qrup işi əsasında öyrənməni təmin edir, Problem elə bir yolla öyrənilməlidir ki, sualın hər bir aspekti qrup üzvləri arasıda bölünə bilsin. Belə ki, hər bir şəxs bu prossesdən yararlana bilsin;
- Müəllim fasılitatordur, yəni müəllim məsləhətçidir;
- Problem əsaslı təlim uzun vaxt tələb edir və tələbələrə öyrənmək və mənimsəmək üçün vaxt verilməlidir;
- Problem əsaslı təlim əgər qaydalara əməl edilərsə daha effektiv olur. Bu problem əsaslı təlimin bir çox sahələrdə effektiv olmasına köməklik edir;

Problem əsaslı təlim tələbləri düşünməyə təhrik edən autentik, real həyatla əlaqəli problem və təcrübələri özündə əks etdirir. Tələbələr müəllimlər tərəfindən bələdçilik edilən qruplar şəklində birləşirlər. Ənənəvi öyrənmə metodunda şagirdlər öyrənilən mövzular barədə yüklənirdilər. Bütün öyrənmə prossesi darıxdırıcı və sıxıcı olurdu. Tələbələr real həyatla əlaqəli olmayan mövzuları öyrənmək və yadda saxlamağa çalışırdılar. Bu isə təhsili yalnızca öyrənmək deyil gələcəkdə diplom alıb iş tapmaq məqsədinə yaxınlaşdırırdı. Tələbələrin sinif otağında öyrədilən heç bir şeyə maraqları olmurdu. Əsas məsələ isə mövzu barədə heç bir effektiv müzakirələrin olmamasıdır və tələbələr müəyyən mövzunu necə istifadə ediləcəyi barədə fikirlərini bölüşə bilmirdilər

Problem əsaslı təlimdə isə məlumat aydin olur. Tələbələr problemi həll edərkən və müzakirə edərkən məlumatı araşdırmaya ehtiyac duyurlar. Belə ki, tələbələrin öyrənməyə maraqları artır. Dərsin məzmunu yəni tələbələrə məlumatın necə veriləcəyi, təqdim etmə üsulları əvvəlcədən müəyyənləşir. Bunun arxasında isə tələbələrin problem əsaslı təlimdən nə qədər əsaslı məlumat əldə edəcəklərinin narahatlığı yatır. Bu təlim prossesi sonsuz bir prossess kimi qəbul edilir.(1, 481)

Problem əsaslı təlim və fəal öyrənmə arasındakı fərq çox vaxt aydın olmur, çünki onların arsınsda bir çox ümumi xüsusiyyətlər vardır. Belə ki, problem əsaslı təlimin əsas komponenti mürəkkəb, real həyatla əlaqəli problemlərin məcmusudur. Başqa sözlə, bu təlim prossesində problemin qoyuluşu və həlli yollarının tapılması birinci gəlir.( 5, 19)

Problem əsaslı təlimin 3 növü vardır.

1. Problem stimullaşdırıcı problem əsaslı təlim- Bu təlim zamanı problemi həll etmək üçün uyğun biliklər və məlumatlar istifadə edilir. Bu zaman 3 əsas məqsəd yerinə yetirilir

a. Əsas bacarıqların inkşafı;

b. Problemin həlli üçün bacarıqların inkşafı;

c. Əsas biliklərin kəşfi;

2. Tələbəyönümlü problem əsaslı təlim yuxarıdakı növ kimi eyni məqsədlərə xidmət edir. Yuxarıda verilən növdən fərqli olaraq uzun müddət davam edəcək bacarıqların inkşafına istiqamətləndirilir. Bu faktor öyrədən və müəyyən bir sahədə uzun müddət ərzində öyrəndikləri

bacarıqları təcrübədə istifadə edən insanlar üçün münasibdir. Bu bacarıqların müntəzəm olaraq yenilənməsi vacibdir. Bu isə əsasən həkimlər, mühəndislər, icraçı vəzifədə olan insanlar üçün münasibdir.

3. Vəziyyətə əsaslanan problem əsaslı təlim- Bu təlim prossesində məsələniin həlli yolları müəyyənləşir, verilən problemi həlll etmək üçün nədən istifadə edilə bilər. Bu təlim növü vurğunun öyrədilən mövzu üzərində olması ilə müəyyənləşir.

Beləliklə problem əsaslı təlim ənənəvi təlimdən fərqli olaraq iddialı öyrənmə prossesidir. O özündə müzakirə və təcrübəni cəmləşdirir. Tələbələr arasında nə qədər çox müzakirə təmin edilərsə o qədər tələbələrin bilik səviyyələri artar. Bu təlim prossesində birbaşa öyrətmə azaldılır. Bu isə tələbələri öyrənmə prossesində öz təşəbbüslərini irəli sürməyə həvəsləndirir. Bu tələbələrdə motivasiya hissini artirir. Eyni zamanda öyrənmə prossesini çox maraqlı edir. Problem əsaslı öyrənmə problemi həll etmək üçün əvvəlki biliklərə əsaslanır. Davamlı olaraq biliklərin təkrarı təmin edilir. Eyni zamanda tənqidi düşüncənin inkşafına təkan verilir. Tələbələr mövzunun müxtəlif aspektləri barədə düşünməyə çalışırlar. Problem əsaslı təlimdə öyrənənlər məlumatı toplamaqda ənənəvi təlimdə olan öyrənənlərdən fərqli olaraq daha bacarıqlı və səriştəli olurlar. Ənənəvi şəkildə öyrənənlər dərs kitablarına asılı olurlar. Onlar yeni mənbələrdən istifadə etməyə cəhd belə etmirlər. Digər tərəfdən problem əsaslı təlimdə öyrənənlər daha təcrübəli olurlar və bu təlim onları daha geniş düşünməyə təhrik edir. Problem əsaslı təlim real həyatda istifadə edilə biləcək bacarıq və təcrübənin inkşafına zəmin yaradır. Bu bacarıqlar real həyatda bir vəsait kimi istifadə edilə bilər. Problem əsaslı təlimdə qoyulan problemlər açıq sonluqlu suallardır. Bu isə mövzu haqqında daha çox müzakirə və düşünməyə imkan yaradır. Belə ki, bu sualların yalnış və ya doğru cavabları ola bilməz. Daha münasib cavablar diqqət mərkəzində olur. Bu halda bir mövzunun bir deyil bir neçe cavabı ola bilər. Bu zaman öyrənənlər faktları daha dərindən öyrənməyə çalışırlar. Problem əsaslı təlim yaxşı ünsiyyət bacarıqlarını inkşaf etdirir. Bu təlim öyrənənlərin hər birinə eyni cür yanaşmanı təmin edir. Bu həmçinin tələbələrdə qarşıdurma və inandırma bacarıqlarını inkşaf etdirir.

Yaxşı problem əsaslı təlim prossesinin təşkili üçün uzun müddət və iş lazımdır. Bu prosses boyunca tələbələrə nəzarət və onların fəallığının qeyd edilməsi tələb edilir. Bütün suallar açıq sonluqlu suallardır və bu suallara aid məlumatın toplanması vaxt aparır. Bu isə problem əsaslı təlimin çatışmayan cəhəti kimi qeyd edilə bilər. Eyni zamanda, bütün müəllimlər yaxşı məsləhətçi deyillər. Problem əsaslı təlim üçün çalışqan və təcrübəli fasilitatorlara ehtiyac duyulur. Problem əsaslı təlimdə hazırlaşmaq, müzakirə və cavabları müqayisə edə bilmək üçün daha çox iş saatlarına ehtiyac duyur. Tələbələr vaxtaşırı görüşlər təşkil etməli olurlar. Ənənəvi təlimdən fərqli olaraq bu təlim növü öyrənənləri daha az faktlarla təmin edir. Müəllimlər bu səbəbdən problem əsaslı təlimi seçərkən tərəddüd edirlər. Bu təlim növü elə sahələri əhatə edir ki, tələbələrin ilkin biliklərə ehtiyacı olmasın. Ədəbiyyat dərsləri problem əsaslı təlimin tətbiqi üçün mükəmməl seçim ola bilər.

Problem əsaslı təlim həmçinin, öyrənmənin əsas yoludur. Çünki bu təlim öyrənənlərin ətrafdakı həyatla üzləşməsinə və cəmiyyətin güclü və dəyərli nümayəndəsi olmasına köməklik edir. Bu təlim növü həmçinin digər insanları və cəmiyyəti təcrübənin bir hissəsi olmağa cəsarətləndirir.

Ədəbiyyat

1. H.S. Barrows, A taxonomy of problem-based learning methods. Medical education, 1986, 20.
2. Cindy E. Hmelo-Silver, Educational Psychology Review, 2004, Volume 16, Issue 3
3. D. Boud and E. Graphame Fletti, The challange of problem-based learning. London. Stirling (USA) Second edition, 1997
4. P. Hager and J. Butler, Problem-based learning and paradigm of assessment. İn reflection on Problem based learning, Campelltoün NSW, Australian PBL Network, 1994
5. D. Woods, Problem-based learning and problem solving.In D.Boud(ed) Problem-based learning in educationfor the proffessions, Sydney, HERDSA, 1985
6. Vygotsky's Educational Theory in Cultural Context. Edited by Alex Kozulin, Boris Gindis, Ageyev V.S, Suzanne M.Miller. Cambridge: Cambridge University Press, 2003,

A. İbrahimova

PBL and its characteristic features

Summary

This article deals with the Problem-based approaches to learning process. Problem based learning is an approach that has grown across the world since the 1970s. It has a long history of supporting experience-based education. Problem-based learning (PBL) can help students to make sense for themselves. It means that this approach enables the students to understand their own situations so that they are able to comprehend how they learn and how they see themselves in future. It is an instructional method. In PBL, students focuses on a complex problem that does not have a single correct answer. Students work in groups or teams collaboratively to solve or manage the problem situations but they are not expected to acquire determined right answer. In order to control the situation effectively they are expected to be attached to the situation and decide what information they need to learn. It is student-centered and it offers the students opportunites for exploring a wide range of information to connect the learning processs with their own needs and to develop the independence in enquiry. It is characterized by the effectiveness of it's collaboration skills, improving intrinsic motivation, flexibility and divercity in the sense that can be implemented in a variety of ways in different subjects in divese context. The teacher is a facilitator in the learning process. She facilitates the students rather than to provide them with knowledge. In this article we try to discuss the character of learning in PBL and investigate the experimental evidence supporting it.

**Key words**: problem based learning, learning processes, problem solving, self-directed learning

А.Ибрагимова

Проблемное обучение и его характерные особенности

Резюме

В данной статье рассматриваются проблемные подходы к процессу обучения. Проблемное обучение - это подход, который вырос во всем мире с 1970-х годов. Он имеет долгую историю поддержки обучения на основе опыта. Проблемное обучение (PBL) может помочь студентам понять смысл для себя. Это означает, что этот подход позволяет студентам понять свои собственные ситуации, чтобы они могли понять, как они учатся и как они видят себя в будущем. Это учебный метод. В Проблемное обучение студенты сосредотачиваются на сложной проблеме, у которой нет единственного правильного ответа. Учащиеся работают в группах или коллективах совместно, чтобы разрешить или справиться с проблемными ситуациями, но от них не ожидается, что они получат определенный правильный ответ. Для эффективного управления ситуацией они будут привязаны к ситуации и решат, какую информацию им необходимо изучить. Он ориентирован на студентов и предлагает студентам возможность изучать широкий спектр информации, чтобы связать учебные процессы с их собственными потребностями и развить независимость в запросах. Он характеризуется эффективностью навыков совместной работы, улучшением внутренней мотивации, гибкости и разнообразия в том смысле, который может быть реализован различными способами в различных предметах в контексте диверсификации. Учитель является помощником в учебном процессе. Она облегчает процесс учении скорее, чем дат им знания. В этой статье мы пытаемся обсудить характер обучения в проблемное обучение и исследовать экспериментальные доказательства, подтверждающие это.

Ключевые слова: проблемное обучение, учебные процессы, решение проблем, самостоятельное обучение

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur.